

# Milli-mədəni dəyərlərin himayədarı

**Mehriban Əliyeva uzun illərdir ki, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır, Heydər Əliyev Fondunun rəhbəri kimi humanitar, mədəni və sosial layihələrin həyata keçirilməsində mühüm xidmətlər göstərir. Təhsil, səhiyyə və mədəniyyət sahələrində təşəbbüsləri Azərbaycan cəmiyyətində geniş rəğbətlə qarşılanır.**

2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva ölkənin Birinci vitse-prezidenti təyin edilib. Bu qərar Azərbaycan siyasi sistemində yeni mərhələnin başlanğıcı oldu və ölkənin idarəçilik modelində mühüm dəyişikliklərə yol açdı. Mehriban Əliyeva daim sosial rifah, humanitar layihələr və dövlət siyasətinin humanist aspektlərinin gücləndirilməsinə xüsusi diqqət ayırır. Həmçinin Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsi və multikultural dəyərlərin təşviqi istiqamətində mühüm işlər görür. Mehriban Əliyevanın vitse-prezident kimi fəaliyyəti Azərbaycan xalqının rifahının yüksəlməsinə, qadınların ictimai və siyasi fəallığının artırılmasına, eləcə də ölkənin sosial-iqtisadi inkişafına töhfə verir. Onun rəhbərliyi ilə həyata keçirilən layihələr ölkənin bütün regionlarında mühüm sosial dəyişikliklərə səbəb olub. Mehriban xanımın siyasi arenada fəal iştirakı ölkənin daxili və xarici siyasətində mühüm rol oynayır.



2017-ci ildə Birinci vitse-prezident vəzifəsinə təyin ediləndən sonra Mehriban Əliyeva sosial, iqtisadi, mədəni, xüsusilə təhsil, səhiyyə, sosial müdafiə və humanitar sahələrdə həyata keçirdiyi proqramlarla cəmiyyətin rifahının artırılmasına mühüm təsir göstərib. Müxtəlif ölkələrlə ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafına töhfə verib. Mehriban Əliyeva xüsusilə uşaqların və qadınların hüquqlarının qorunması, sosial bərabərliyin təmin edilməsi məsələlərinə xüsusi önəm verir. Onun təşəbbüsləri Azərbaycanın mədəni irsinin gələcək nəsillərə çatdırılmasına yönəlib.

Mehriban Əliyevanın təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondu yaradılıb, 1996-cı ildə isə Azərbaycan mədəniyyətinin dünyada tanıdılması üçün üç dildə - Azərbaycan, ingilis və rus dillərində nəşr olunan "Azərbaycan - İrs" jurnalının əsasını qoyub. 2002-ci ilin 7 oktyabrında Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti seçilib və bu sahənin inkişafına mühüm töhfələr verib. Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və onun formalaşdırdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılan Heydər Əliyev Fonduna 2004-cü ildən rəhbərlik edir. Fond o vaxtdan etibarən müxtəlif humanitar, təhsil və mədəniyyət sahələrində genişmiqyaslı layihələr həyata keçirir.

2004-cü ilin dekabrında Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçilən Mehriban xanım o zamandan Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvüdür. 2005-ci ildə Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb. Həmçinin həmin il fəlsəfə elmləri namizədi dərəcəsi alıb və Yeni Azərbaycan Partiyası tərəfindən Milli Məclisə deputat seçilib. Onun xeyriyyəçilik fəaliyyəti yüksək qiymətləndirilib. Mehriban Əliyeva 2013-cü ildə Yeni Azərbaycan Partiyasının sədr müavini seçilib və 2015-ci ildə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Mehriban xanımın, həmçinin xalqımızın muğam kimi dəyərli mirasının qorunmasında, kitabxanaların açılmasında böyük əməyi var. 2005-ci il dekabrın 9-da BMT-nin İnkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında saziş imzalanıb. Sənədlər imzalandıqdan sonra Mehriban xanım Əliyeva çıxış edərək deyib: "...Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat", "Yeniləşən Azərbaycana yeni məktəblər", "Uşaq evi və internat məktəblərinin inkişafı" proqramları qısa bir zamanda həyata keçirilmişdir və nəticədə minlərlə insana yardım göstərilmiş, kimsəsiz uşaqlara qayğı artırılmış, mühüm sosial problemlər həllini tapmışdır. Məhz bu fəaliyyətinə görə Heydər Əliyev Fondu Azərbaycanda böyük hörmətə malik olan və ölkənin ictimai həyatında mühüm rol oynayan bir qurumdur. Bu gün Heydər Əliyev Fondu beynəlxalq səhnəyə çıxır. Dünyanın ən mötəbər, ən nüfuzlu təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı ilə birgə fəaliyyətə başlayır. Mən əminəm ki, bu gün başladığımız layihə çox böyük uğurla nəticələnəcək...".

Bu gün Heydər Əliyev Fondu genişmiqyaslı və uğurlu layihələri ilə ölkənin inkişafına mühüm töhfə verir. Təhsil, mədəniyyət, səhiyyə və sosial sahələrdə irəli sürülən təşəbbüslər sayəsində Fond cəmiyyətin rifahının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Heydər Əliyev Fondunun fəaliyyəti mədəniyyət, təhsil, sosial, idman və turizmi sahələrini əhatə edir. Fond həm Azərbaycanda, həm də dünyada bir çox əhəmiyyətli layihələr həyata keçirərək milli mədəniyyətimizin beynəlxalq səviyyədə təmsil olunmasına mühüm töhfələr verir. Heydər Əliyev ideyalarının davam etdirilməsində Fondun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Heydər Əliyev Fondu ümummilli liderin irsinin qorunub saxlanılması və əbədiləşdirilməsi istiqamətində müstəsna missiya yerinə yetirir. Fond Azərbaycanın sosial, mədəni və iqtisadi inkişafına önəmli töhfələr verməklə yanaşı, ölkənin beynəlxalq aləmdə daha güclü təmsil olunmasına imkan yaradır. Yarandığı gündən xeyriyyəçilik, mərhəmət və şəfqət prinsiplərini öz əsas dəyərləri kimi qəbul edən Heydər Əliyev Fondu illər ərzində bir çox uğurlar əldə edərək öz hədəflərinə nail olub.

2017-ci il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilib. Mehriban Əliyeva çıxışında deyib ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Həmin il aprelin 3-də Birinci vitse-prezidentin iştirakı ilə "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi təqdim olunub. Heydər Əliyev Fondunun prezidenti 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb.

Mehriban Əliyevanın mədəniyyətimizin və tariximizin qorunması istiqamətindəki fəaliyyəti böyük əhəmiyyətə malikdir. Birinci xanım Azərbaycanın zəngin mədəni irsinin, tarixi abidələrinin və ənənələrinin qorunması üçün bir sıra layihələr həyata keçirib. Bu sahədə onun rəhbərliyi ilə bərpa və təmir işləri görülüb, tariximizin izləri olan abidələr qorunub saxlanılıb. Mehriban Əliyeva həm də Azərbaycan mədəniyyətini dünyaya tanıtmaq üçün beynəlxalq tədbirlərdə fəal iştirak edir, ölkəmizin mədəni irsini təqdim edərək, digər ölkələrlə mədəni münasibətləri gücləndirir. Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və sağlamlığı ilə bağlı bir çox layihələrə rəhbərlik edib. Öz ad günlərini belə bu uşaqlarla keçirməsi, sevincini onlarla bölüşməsi Mehriban Əliyevanın yüksək humanizmini əks etdirir.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**